# Demokratiya, insan hüquqları və vətəndaş cəmiyyəti

“Azərbaycan demokratik dəyərlərə möhkəm inanan ölkədir. Demokratiyanın inkişafına tam sadiqdir. Biz başa düşürük ki, cəmiyyətin demokratikləşməsi həy ata keçmədən nəzərdə tutduğumuz iri iqtisadi layihələr uğurlu ola bilməz. Azərbaycan dinamik inkişaf edən ölkədir. İndi hamımız, mənim özüm, rəhbərlik etdiyimiz qurumlar, Azərbaycan xalqı, Azərbaycanın dostları, biznes icması üzərlərinə düşən vəzifələri yerinə yetirməlidir.”

***Fransa Sahibkarlar Təşkilatının üzvləri ilə görüşündə nitqindən***
***(22 yanvar 2004)***

***

"Ölkəmizi müasirləşdirmək, yeniləşdirmək, gücləndirmək, iqtisadiyyatımızı, ordumuzu gücləndirmək - bu gün bizim planlarımız məhz bundan ibarətdir. Azərbaycan xalqı üçün gözəl şərait yaratmaq və Azərbaycanı dünya birliyinə daha da sürətlə, hərtərəfli inteqrasiya etmək bizim əsas, prioritet məsələlərimizdir".

***Prezident İlham Əliyevə Bilkənd Universitetinin fəxri doktoru diplomu və İhsan Doğramacı adına Dünya sülh mükafatının təqdimetmə mərasimində nitqindən***
***(14 aprel 2004)***

***

"...sərmayəçilər şəraitin sabitliyinə əmin olmadan, iqtisadiyyatın artımını görmədən, ölkənin demokratik istiqamətdə hərəkətini hiss etmədən milyardlarla dollarını heç zaman risk altına qoymazlar".

***Varşavada Avropa İqtisadi Sammitində nitqindən***
***(28 aprel 2004)***

***

"İqtisadi artım və cəmiyyətin demokratikləşməsi siyasətimizin əsas elementləridir və biri digərsiz mümkün ola bilməz. İqtisadi cəhətdən güclü ola bilərsən, amma demokratiya yoxdursa, şəffaflıq yoxdursa, insan haqları qorunmursa, uğur qazana bilməzsən",

***AŞPA-nın yaz sessiyasındakı iclasında çıxışından***
***(30 aprel 2004)***

***

"Davamlı inkişafın əsas elementlərindən biri də davamlı siyasi islahatlardır. Cəmiyyətimizin demokratikləşdirilməsi prosesi davam edir. Bu istiqamətdə çoxlu müsbət addımlar atılmışdır və bu gün Azərbaycan cəmiyyəti əlbirdir".

***Avropa Komissiyasında çıxışından***
***(18 may 2004)***

***

“Ölkəmizdə cəmiyyətin demokratikləşdirilməsi, hüquqi dövlət yaradılması prosesləri, qanunun aliliyi ideyası coşqun iqtisadi inkişafla, Azərbaycanın dinamik iqtisadi tərəqqisini təmin edən iqtisadi islahatlarla müşayiət olunur.”

***Kiyevdə GUAM ölkələri dövlət başçılarının zirvə görüşündə nitqindən***
***(23 may 2006)***

***

"Azərbaycanda qayda-qanun var və hər bir vətəndaş qanunlara tabe olmalıdır. Azərbaycanda sabitliyin qorunması gələcək inkişafımız üçün ən önəmli şərtlərdən biridir".

***28 may Respublika Günü münasibətilə rəsmi qəbulda nitqindən***
***(27 may 2004)***

***

"Tarixin sınaqlarından alnıaçıq, üzüağ çıxan Azərbaycan qadını bu gün müstəqil respublikamızda demokratik cəmiyyətin aparıcı üzvü kimi çıxış edir".

***8 Mart-Beynəlxalq Qadınlar Günü münasibəti ilə***
***Azərbaycan qadınlarına təbrikindən***
***(8 mart 2005)***

***

"Hər bir vətəndaşın hüququnun qorunması bizim üçün çox önəmlidir. Vətəndaşlarımızın təhülkəsizliyi də dövlət tərəfindən təmin edilir və bundan sonra da ediləcəkdir".

***Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaranmasının***
***13-cü ildönümünə həs rolunmuş təntənəli mərasimdə nitqindən***
***(12 mart 2005)***

***

"...siyasi və iqtisadi islahatlar yolunda həyata keçirdiyimiz siyasət aşağıdakı sahələr üzrə bir çox nailiyyətlərin əldə olunmasını mümkün etmişdir: siyasi və iqtisadi dəyişikliklər, cəmiyyətimizin müasirləşməsi, demokratiyanın inkişaf etdirilməsi, insan hüquqlarının qorunması, söz azadlığı və plüralizm".

***Varşavada Avropa Şurasinın üzvü olan ölkələrin***
***dövlət və hökumət başçılarının görüşündə çıxışından***
***(16 may 2005)***

***

Azərbaycanda siyasi, iqtisadi-sosial, hüquqi islahatlar həyata keçirilmiş, vətəndaş cəmiyyətinin qurulması istiqamətində ciddi addımlar atılmışdır. Avropa dəyərlərinin bərqərar edilməsində, insan hüquqları və azadlıqlarının təmin olunmasında, demokratik təsisatların yaradılmasında və bazar iqtisadiyyatına keçiddə böyük nailiyyətlər qazanılmışdır".

***Xorvatiyaya rəsmi səfərinin yekununa həsr olunmuş mətbuat konfransında çıxışından***
***(13 iyun 2005)***

***

"...regionumuzun gələcəyi cəmiyyətimizin nə dərəcədə uğurla müasirləşdirilməsindən asılı olacaqdır. Yəni demokratik islahatların inkişaf etdirilməsi, iqtisadi islahatların həyata keçirməsi siyasi sistemin, cəmiyyətimizin müasirləşdirilməsi siyasətində daha fəal olmağımızdan asılı olacaqdır".

***Kiyevdə Fövqəladə Ukrayna dəyirmi masasi"adlı Beynəlxalq İnvestisiya Forumunda çıxışından (16 iyun 2005)***

***

"Harada ki, demokratiya inkişaf edib, o ölkələr iqtisadi cəhətdən də inkişaf edibdir. Harada ki, demokratiya inkişaf etməyib, o ölkələrdə inkişaf da sürətlə getməyibdir. Bu məsələdə heç bir təbii ehtiyatlar, neft, qaz böyük rol oynamır, bunlar müvəqqəti amillərdir".

***Yardımlı rayonunun sakinləri ilə görüşdə nitqindən (10 sentyabr 2005)***

***

"Biz öz siyasətimizi düşünülmüş, uzunmüddətli iqtisadi strategiya əsasında, çox güclü əsaslarla, elmi yanaşmalarla qururuq və həyata keçiririk.

Azərbaycanda demokratik cəmiyyətin, hüquqi dövlətin yaranması bizim başlıca məqsədimizdir. Harada tərəqqi, inkişaf varsa, o yerdə demokratik cəmiyyət mövcuddur. Mən tam əminəm ki, ölkədə nə qədər neft, qaz, başqa təbii ehtiyatlar olsa belə, əgər ölkə azad deyilsə, demokratiya tam bərqərar edilməyibsə, həmin ölkənin gələcəyi o qədər də uğurlu olmayacaqdır.

...kasıb ölkədə, yoxsullar olan ölkədə tam şəkildə demokratik cəmiyyətin qurulması da mümkün deyildir. Çünki əgər insanlar kasıbdırsa, əgər yoxsulluq, işsizlik şəraitində yaşayırsa, onları tamamilə başqa məsələlər düşündürür. Ona görə biz ölkəmizi hərtərəfli inkişaf etdirməliyik. Güclü iqtisadi bazanın yaradılması, eyni zamanda ölkənin normal demokratik inkişafına zəmin yaradır və onu müəyyən edir".

***Azərbaycan Gənclərinin IV Forumunun yekun toplantısında nitqindən (14 oktyabr 2005)***

***

"Demokratiyanın ixracı işləmir. Bu, təkamül, keçid prosesi olmalıdır. Əlbəttə ki, hökumət, tərəfdaşlar, beynəlxalq təşkilatlar, qeyri-hökumət təşkilatları fəal olmalıdırlar. Biz deyə bilmərik ki, müstəqilsiniz, gəncsiniz, elə belə də yaşayın. Yox, biz işləməliyik və cəmiyyətdəki reallıqdan çıxış etməliyik. Demokratiya kənardan gətirilirsə, ixrac olunursa və yaxud məcburən tətbiq edilirsə, bunun heç bir faydası olmur. Bu, sadəcə sosial, siyasi problemlərin yaranmasına, sabitliyin pozulmasına gətirib çıxarır, mənfi nəticələr doğurur".

***Tokio Beynəlxalq Münasibətlər İnstitutunda çıxışından (8 mart 2006)***

***

"Azərbaycanda cəmiyyətin demokratikləşməsi prosesi, siyasi islahatlar, siyasi təsisatların möhkəmləndirilməsi və eyni zamanda, liberal islahatlar, bazar iqtisadiyyatı prinsipləri və iqtisadi nailiyyətlər kimi vəzifələr bizim daim diqqət mərkəzimizdədir."

***NATO Parlament Assambleyasının yaz sessiyasında çıxışından (30 may 2006)***

***

"Vətəndaş cəmiyyətinin yaradilması və möhkəmlənməsi, demokratikləşmə prosesinin möhkəmlənməsi, hüquqi dövlətin qurulması sadəcə olaraq bir şüar, yaxud da bir niyyət deyil, Azərbaycanın hərtərəfli inkişafı üçün başlıca şərtdir. Azərbaycanın seçdiyi yol düzgün yoldur. İqtisadi, siyasi və sosial islahatların paralel şəkildə aparilması Azərbaycanı hərtərəfli inkişaf etdirir və ölkəmiz üçün çox lazım olan sabitliyi möhkəmləndirir, ictimai-siyasi vəziyyətə də müsbət təsir göstərir"

***Milli Məclisin 2006-cı il payız sessiyasının açılışında nitqindən***
***(2 oktyabr 2006)***

***

"Azərbaycanda ombudsman təsisatı altı il bundan əvvəl yaradılmışdır. Biz bu baxımdan inkişafın hələ ki ilkin mərhələsindəyik. Amma deyə bilərəm ki, bu qısa müddət ərzində Azərbaycanda bu sahədə çox böyük işlər görülübdür. Azərbaycan insan hüquqlarını təmin edən müxtəlif beynəlxalq sazişlərə, konvensiyalara qoşulmuşdur. Biz beynəlxalq təşkilatlarla bu sahədə çox uğurlu əməkdaşlıq edirik."

***Ombudsmanların VI Bakı Beynəlxalq konfransının***
***iştirakçılarını qəbul edərkən çıxışından***
***(18 iyun 2008)***

***

"Ölkə daxilində sabitlik, vətəndaş cəmiyyətinin möhkəmlənməsi, siyasi sistemin möhkəmlənməsi, iqtisadi islahatlar, çevik xarici siyasət və bölgədə bizim təşəbbüsümüzlə həll olunan irimiqyaslı layihələrin icrası – bütün bu istiqamətlərdə bütün vəzifələr öz həllini tapıbdır."

***Milli Məclisin Azərbaycan Parlamentinin 90 illik yubileyinə***
***həsr olunmuş təntənəli yığıncağında nitqindən***
***(19 iyun 2008)***

***

"Azərbaycan demokratiyanın inkişafı sahəsində çox böyük və uğurlu yol keçmişdir. Bizim ölkəmiz demokratik əsaslarla idarə olunur, xalqın iradəsinə əsaslanır. Xalqla iqtidar arasındakı birlik məhz ölkədə demokratik vəziyyətin nə qədər möhkəm olduğunu göstərir."

***Azərbaycan Respublikası Ali Məhkəməsinin yeni inzibati binasının***
***təntənəli açılış mərasimində nitqindən***
***(12 may 2009)***

***

"Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması prosesi uğurla gedir, xalqla iqtidar arasında birlik vardır. Bütün təşəbbüslərimiz xalq tərəfindən dəstəklənir, əks təqdirdə biz bu inkişafa nail ola bilməzdik."

***Bakıda Novruz bayramı münasibətilə ümumxalq şənliyində nitqindən***
***(19 mart 2011)***

***

"Azərbaycanda demokratik islahatlar davam etdirilmiş, güclü vətəndaş cəmiyyəti formalaşmışdır. Bu gün Azərbaycan ifadə, söz, mətbuat azadlığı tam təmin olunmuş bir ölkədir. Bizim həyata keçirdiyimiz siyasətin əsasında insan amili, vətəndaşlarımızın rifahı məsələsi dayanır. Bütün addımlarımız, gördüyümüz işlər Azərbaycan xalqının maraqlarına xidmət edir. Təbii ki, xalqımızın etimadı, dəstəyi olmasaydı, biz bu nəhəng planları həyata keçirə bilməzdik."

***Böyük Britaniyanın nüfuzlu "The Buisness Year" jurnalına müsahibəsindən***
***(4 aprel 2013)***

***

"Azərbaycanda bütün azadlıqlar təmin edilmişdir. Siyasi azadlıqlar, söz azadlığı, mətbuat azadlığı, sərbəst toplaşmaq azadlığı, vicdan azadlığı təmin edilmişdir. Azərbaycanda bütün demokratik proseslər müsbət istiqamətdə getmişdir. Son on il ərzində iqtisadi uğurlarla bərabər, siyasi islahatların aparılması da ölkəmizin uğurlu inkişafını şərtləndirmişdir."

***Andiçmə mərasimində nitqindən***
***(19 oktyabr 2013)***

***

"Azərbaycanın dayanıqlı inkişafı elmi-texniki tərəqqi, müasir texnologiyalar, azad, demokratik cəmiyyət üzərində qurulmalıdır. Ölkəmizdə bu istiqamətdə böyük addımlar atılır. Azərbaycanda demokratiyanın inkişafı, insan hüquqlarının qorunması, azad cəmiyyətin formalaşması istiqamətində çox ciddi islahatlar aparılmışdır. Azərbaycanda siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılır."

***Üçüncü Beynəlxalq Humanitar Forumda nitqindən***
***(31 oktyabr 2013)***

***

"Azərbaycanda söz azadlığı, mətbuat azadlığı, siyasi fəaliyyət azadlığı, sərbəst toplaşmaq azadlığı, vicdan azadlığı təmin edilib."

***"Jurnalistlərin dostu" mükafatının təqdim edilməsi mərasimində giriş nitqindən***
***(24 noyabr 2013)***

***

"Azərbaycanda bütün azadlıqlar təmin edilir. Siyasi fəaliyyət azadlığı vardır. Yüzlərlə siyasi təşkilat, partiya mövcuddur. İfadə azadlığı, mətbuat azadlığı vardır. Qırxdan artıq gündəlik və təxminən iki yüz həftəlik və aylıq qəzet çıxır. Respublika səviyyəsində doqquz televiziya kanalı vardır. On dörd bölgə və on dörd kabel televiziya kanalı fəaliyyət göstərir. Bizdə azad internet vardır. Azərbaycanda internet istifadəçilərinin sayı 70 faizdən artıqdır. Hazırda hökumətimiz böyük sərmayələri tələb edən layihəni həyata keçirməkdədir: genişzolaqlı internet hər bir şəhər və kənd üçün təmin edilməlidir."

***Avropa Şurası Parlament Assambleyasının sessiyasında nitqindən***
***(25 iyun 2014)***

***

“Azərbaycanda bütün demokratik təsisatlar uğurla fəaliyyət göstərir, ölkədə bütün azadlıqlar - söz azadlığı, siyasi fəaliyyət azadlığı, mətbuat azadlığı, sərbəst toplaşma azadlığı, vicdan-din azadlığı təmin edilir, bütün azadlıqlar mövcuddur.”

***Beşinci çağırış Milli Məclisinin ilk iclasında nitqindən***
***(24 noyabr 2015)***

***

“ATƏT işğal edilmiş ərazilərə iki dəfə missiya göndərmişdir. Missiyaların məruzələri göstərir ki, işğal edilmiş torpaqlarda hər şey - bizim şəhərlərimiz, kəndlərimiz, tarixi, dini abidələrimiz dağıdılıb. Ermənilər işğal edilmiş torpaqlarda 10 məscidi dağıdıblar. Bu, vəhşilikdir. Bu, İslam mədəniyyətinə qarşı terrorizmdir. Bir daha qeyd etmək istəyirəm ki, ISESCO bu məsələdə Azərbaycanın haqlı işini daim dəstəkləyir.”

***İSESCO Baş Konfransının XII sessiyasının açılışında çıxışından***
***(26 noyabr 2015)***

***

“Ölkəmizdə, eyni zamanda, bütün azadlıqlar təmin edilir və edilməlidir, bu da bizim siyasətimizdir. Gələcək illərdə də demokratik inkişafla bağlı yeni addımlar atılacaqdır, siyasi islahatlar davam etdiriləcəkdir. Son illər ərzində bu istiqamətdə gözəl nəticələr əldə edilib və bu, daimi prosesdir. Biz çalışmalıyıq ki, dünyanın demokratik baxımdan ən inkişaf etmiş ölkələrinin standartlarına yaxınlaşaq və bunu edəcəyik.”

***Yeni Azərbaycan Partiyasının VI qurultayında nitqindən***
***(9 fevral 2018)***

***

Bu 15 il ərzində Azərbaycanda demokratik inkişaf çox sürətlə getmişdir, Azərbaycanda bütün azadlıqlar təmin edilmişdir. Hesab edirəm ki, bu 15 il demokratik inkişaf baxımından çox uğurlu illər olmuşdur. Biz siyasi islahatları dərinləşdirərək bütün azadlıqları – söz azadlığını, mətbuat azadlığını, sərbəst toplaşma azadlığını, siyasi fəaliyyət azadlığını təmin etmişik.

***Andiçmə mərasimində nitqindən***
***(18 aprel 2018)***

***

“Siyasi islahatlar partiyalararası geniş dialoq aparılmadan həyata keçirilə bilməz. Bir partiya – hakim partiya təkbaşına siyasi dialoq apara bilməz. Çünki dialoq üçün tərəf-müqabillər lazımdır və ilkin təəssürat müsbətdir. Bu təşəbbüs heç bir şərt qoymadan həyata keçirilir.”

“Bizim siyasətimiz ədalətlidir və sözümüzlə əməlimiz arasında fərq yoxdur. Mən öz sözümü bütün auditoriyalarda deyirəm. Mənim üçün bir mövzu Azərbaycanda, bir mövzu xaricdə anlayışı yoxdur. Hər bir məsələ ilə bağlı mövqe var, mövqe olmalıdır və mən bu mövqeni müdafiə edirəm. Kimin xoşuna gəlir, gəlir, kimin xoşuna gəlmir, özü bilər. Bizi istəməyə bilərlər məhz bu hərəkətlərimizə görə, bu müstəqil siyasətimizə görə. Amma bizə hörmət edirlər.”

***Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında nitqindən***
***(10 mart 2020)***

***

“2020-ci ilin fevral ayında ölkəmizdə parlament seçkiləri keçirilmişdir. Parlament seçkiləri demokratiya istiqamətində atılmış növbəti ciddi addım idi. Parlamentin rəhbər orqanları yeniləndi, rəhbərliyə yeni insanlar gəldi. İlk dəfə olaraq parlamentin sədr müavini müxalifət partiyasının nümayəndəsi seçildi. Eyni zamanda, ilk dəfə olaraq parlament komitələrinin sədr və müavin vəzifələrinə müxalifət nümayəndələri seçildilər. Bu, yeni siyasi mədəniyyətin təzahürüdür. Bu, bütün siyasi qüvvələr arasındakı əməkdaşlığa yönəlmiş ciddi bir addımdır.”

***2020-ci ilin yekunlarına həsr olunan videokonfrans***
***şəklində keçirilən müşavirədə giriş nitqindən***
***(7 yanvar 2021)***

***

“Böyük dövlətlər, hansılar ki, beynəlxalq hüququn təminatçısı rolunu öz üzərinə götürüblər, birinci onlar bu hüququ pozurlar və sonra da onu əsaslandırırlar. Ölkələr deyəndə mən bütün böyük ölkələri nəzərdə tuturam. Necə deyərlər, hərəsi öz xətti ilə ya konvensiyaları pozur, ya beynəlxalq hüquq normalarını pozur, ya da oturuşmuş beynəlxalq davranış qaydalarını pozur və bunu heç gizlətmir də. Ona görə, əlbəttə ki, biz, ilk növbədə, özümüzü qorumaq üçün, öz müstəqilliyimizi qorumaq üçün, seçimimizi qorumaq üçün, həyat tərzimizi qorumaq üçün, ərazi bütövlüyümüzü qorumaq üçün daha güclü olmalıyıq”.

***2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə çıxışından***
***(11 iyul 2023)***